AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# Maliyyə sahəsində peşəkar sertifikatın verilməsi prosesinin təşkili və imtahanların keçirilməsi üzrə

# TƏLİMAT

Azərbaycan Respublikasının
Mərkəzi Bankı İdarə Heyətinin
"**28**" **aprel** 2026-cı il
tarixli qərarı ilə təsdiq edilmişdir.
Protokol № **18**

**Maliyyə sahəsində peşəkar sertifikatın verilməsi prosesinin təşkili və imtahanların keçirilməsi üzrə**

**Təlimat**

## 1. Ümumi müddəalar

1.1. Bu Təlimat "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 49.1-ci maddəsinə və Azərbaycan Respublikası Mərkəzi Bankının "Risk əsaslı nəzarət üzrə Siyasət Konsepsiyası"na əsasən hazırlanmışdır və nəzarət subyektlərində fəaliyyət göstərən şəxslərin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi, onların bilik və bacarıqlarının daxili nəzarət və risklərin effektiv idarə edilməsinə uyğunluğunu təmin etmək məqsədilə peşəkar sertifikatlaşdırmanın təşkili, imtahanların keçirilməsi və sertifikatların verilməsi, eləcə də inzibatçıların və rəhbər şəxslərin davamlı olaraq bu standart və tələblərə cavab verməsinin təmin edilməsi qaydalarını müəyyən edir.

1.2. Bu Təlimat maliyyə bazarlarını tənzimləyən qanunlarla Azərbaycan Respublikasının Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) nəzarət etdiyi subyektlər kimi müəyyən edilən şəxslərə (nəzarət subyektlərinə) şamil edilir.

1.3. Peşəkar sertifikatlaşdırma maliyyə institutunun risk əsaslı nəzarət çərçivəsində risk profilinin və nəzarət intensivliyin müəyyən edilməsində nəzərə alınır.

## 2. Peşəkar sertifikatlaşdırmanın təsviri

2.1. Nəzarət subyekti öz əməkdaşlarının çalışdığı vəzifə qrupu (qrupları) üzrə Mərkəzi Bankda peşəkar sertifikatlaşdırmadan keçməsini təmin edir.

2.2. Peşəkar sertifikatlaşdırmaya bu Təlimata 1 nömrəli Əlavədə göstərilmiş vəzifə qruplarına daxil olan funksiyaları icra edən şəxslər cəlb olunur.

2.3. Nəzarət subyektlərində fəaliyyət göstərən şəxslər tutduqları vəzifədən və icra etdikləri işlərdən asılı olmayaraq bu Təlimatın 2.2-ci bəndinə əsasən müəyyən edilmiş vəzifə qrupuna daxil olan funksiyanı yerinə yetirdikləri halda həmin funksiyanın daxil olduğu vəzifə qrupuna aid hesab olunurlar.

2.4. Peşəkar sertifikatlaşdırma vəzifə qrupuna daxil olan aşağıdakı 2 vəzifə dərəcəsi üzrə aparılır:

2.4.1. 1-ci vəzifə dərəcəsi;

2.4.2. 2-ci vəzifə dərəcəsi;

2.5. Bu Təlimatın 2.4-cü bəndində müəyyən edilmiş vəzifə dərəcələrinin əhatə etdiyi funksiyalar bu Təlimata 1 nömrəli Əlavə ilə müəyyən edilir.

2.6. Peşəkar sertifikatlaşdırma vəzifə qruplarından və vəzifə dərəcələrindən asılı olaraq imtahan modullarına bölünür. İmtahan modullarına daxil olan mövzular, modulların tətbiq olunduğu vəzifə dərəcələri və imtahan modullarından azadolmalar bu Təlimata 1 nömrəli Əlavə ilə müəyyən edilir.

2.7. Yalnız müvafiq vəzifə dərəcəsi üzrə müəyyən edilmiş və fəaliyyət sahəsinə aid olan bütün imtahan modullarından müvəffəqiyyətlə keçmiş şəxslər həmin vəzifə dərəcəsi üzrə peşəkar sertifikatlaşdırmadan keçmiş hesab olunurlar.

## 3. İmtahanların təşkili

3.1. Peşəkar sertifikatlaşdırma üzrə modul imtahanları Mərkəzi Bank tərəfindən təşkil edilir.

3.2. İmtahanda iştirak etmək üçün Mərkəzi Bankın müvafiq informasiya sistemində nəzarət subyekti tərəfindən imtahanda iştirak edəcək şəxslərin qeydiyyatdan keçirilməsi və müraciət edilməsi tələb olunur.

3.3. Müraciətdə informasiya sisteminin tələb etdiyi məlumatlar, o cümlədən imtahanda iştirak edəcək şəxslərin elektron poçt ünvanı və vermək istədiyi imtahan modulu (modulları) qeyd edilir.

3.4. Ən çoxu altı modul olmaqla imtahan bir və ya bir neçə modul üzrə təşkil edilə bilər.

3.5. Mərkəzi Bankın informasiya sistemi vasitəsi ilə müraciət edildikdən sonra 30 gün ərzində imtahanın yeri və vaxtı barədə maliyyə institutuna və imtahanda iştirakı nəzərdə tutulan şəxsin elektron poçt ünvanına bildiriş göndərilir.

3.6. İmtahanda iştirak etməyən şəxs hər hansı modul üzrə imtahanda azı 3 aydan sonra təkrar iştirak edə bilər.

3.7. Hər hansı modul imtahanından keçməyən şəxs həmin modul üzrə imtahanda azı 3 aydan sonra təkrar iştirak edə bilər.

## 4. İmtahanların keçirilməsi

4.1. İmtahan kompüter vasitəsilə elektron qaydada aparılır və imtahan modulu ərzində fasilə verilmir. Modullar üzrə imtahan test üsulu ilə bir mərhələdə həyata keçirilir və qapalı tipli test tapşırıqlarından ibarətdir.

4.2. Qapalı tipli test imtahanı yalnız biri düzgün olan dörd cavab variantlarından bir düzgün cavabı müəyyənləşdirilərək qeyd edilməsini tələb edən test tapşırıqlarıdır.

4.3. Test imtahanında hər imtahan modulu üzrə 20 (iyirmi) tapşırıq təqdim edilir və bir modul üzrə imtahanın keçirilməsinə 30 (otuz) dəqiqə vaxt ayrılır.

4.4. Hər imtahan modulu üzrə azı 13 düzgün cavabı olan şəxs həmin modul üzrə imtahandan keçmiş hesab olunur.

4.5. Bir neçə modullar üzrə imtahan verən şəxsin hər hansı modul üzrə nəticəsi digər modulların nəticəsinə təsir etmir.

4.6. İmtahan zamanı namizədin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

4.6.1. saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;

4.6.2. imtahanda mobil telefon və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələrdən istifadə etmək;

4.6.3. imtahan binasına yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər təhlükəli əşyalar, tütün məmulatları, bütün növ elektron siqaretlər, eləcə də onlara aid ləvazimatları gətirmək;

4.6.4. səbəbindən asılı olmayaraq, imtahan başlandığı andan yerini dəyişmək, gəzişmək, yerindən durmaq və imtahanın gedişinə mane olmaq;

4.6.5. başqasının nəticəsinə təsir göstərmək, həmçinin test tapşırıqlarının məzmunu ilə bağlı başqa şəxslərlə danışmaq;

4.6.6. nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək.

4.7. İmtahanda iştirak edən şəxsin bu Təlimatın 4.6-cı bəndində göstərilən hərəkətlərə yol verməsi halları aşkar edildikdə, həmin şəxs imtahana buraxılmır, habelə nəzarətçi tərəfindən imtahan zalından kənarlaşdırılır və onun nəticələri ləğv edilir.

## 5. İmtahanının nəticələri

5.1. İmtahanda iştirak edən şəxsin nəticələri imtahan bitəndən dərhal sonra ona elan edilir.

5.2. İmtahandan müvəffəqiyyətlə keçmiş şəxslərə imtahan günündən sonra 30 təqvim günü ərzində Mərkəzi Bank tərəfindən müvafiq modul və ya modullar üzrə sertifikat verilir.

5.3. Sertifikat "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq elektron sənəd formasında bu Təlimata 2 nömrəli Əlavədə müəyyən edilmiş formada müddətsiz verilir.

5.4. Sertifikat maliyyə institutunun və imtahandan keçmiş şəxsin elektron poçt ünvanlarına göndərilir. Mərkəzi Bank bu Təlimatın 3.2-ci bəndində nəzərdə tutulmuş informasiya sistemində qeydiyyat keçirilmə və müraciət edilmə mərhələsində qeyd edilmiş elektron poçt ünvanına sertifikatı göndərmək və çap etdirmək imkanını yaradır.

## 6. Davamlı inkişaf

6.1. Nəzarət subyekti vəzifə qrupunun 2-ci vəzifə dərəcəsi üzrə sertifikat alan şəxslərin peşəkarlıq səviyyəsinin, bilik və bacarıqlarının eyni səviyyədə saxlanılması və ya təkmilləşdirilməsi məqsədilə davamlı olaraq peşəkar inkişafını təmin edir.

6.2. Davamlı peşəkar inkişaf 1 (bir) il ərzində azı 15 (on beş) saat təşkil edir.

6.3. Davamlı peşəkar inkişaf aşağıdakılar vasitəsi ilə təmin edilə bilər:

6.3.1. nəzarət subyekti daxili seminarda iştirak;

6.3.2. müxtəlif virtual platformalarda mövcud olan kurslarda iştirak və sertifikatların alınması;

6.3.3. imtahan verilmiş modullar üzrə elmi və pedaqoji fəaliyyətin göstərilməsi;

6.3.4. maliyyə sektorunda fəaliyyət göstərən şəxslərin peşəkar inkişafı və cəmiyyətin maliyyə savadlılığının artırılması istiqamətində fəaliyyətin həyata keçirilməsi.

“Maliyyə sahəsində peşəkar sertifikatın verilməsi prosesinin təşkili və imtahanların keçirilməsi üzrə Təlimat”a 1 nömrəli Əlavə

## RİSKLƏRİN İDARƏ EDİLMƏSİ VƏZİFƏ QRUPU ÜZRƏ PEŞƏKAR SERTİFİKATLAŞDIRMA

### Peşəkar sertifikatlaşdırma üzrə imtahanın modulları, mövzuları və azadolmalar

| KOD | MODULUN ADI | MODULA DAXİL OLAN MÖVZULAR | AZADOLMALAR |
|---|---|---|---|
| **R-1** | **Risklərin idarə edilməsi - səviyyə 1** | • Risk idarəetməsi - fundamental biliklər<br>• Əsas kəmiyyət metodları<br>• Maliyyə bazarları və məhsulları | Maliyyə riskləri meneceri - FRM 1 (Financial Risk Manager Part 1) |
| **R-2** | **Risklərin idarə edilməsi - səviyyə 2** | • Risk idarəetməsində rəhbərlik<br>• Təkmil risk qiymətləndirmə texnikaları<br>• Ətraf Mühit, Sosial, İdarəetmə (ESG) və dayanıqlılıq riski | Maliyyə riskləri meneceri - FRM 1 (Financial Risk Manager Part 1) |
| **İƏ** | **İqtisadiyyatın əsasları** | • Şirkət və bazar strukturu<br>• Biznes tsiklləri<br>• Fiskal siyasət<br>• Monetar siyasət<br>• Kapital axınları və valyuta (FX) bazarı | CFA I (Chartered Financial Analyst I) |
| **M-1** | **Maliyyə idarəetməsi ilkin anlayışlar** | • Pulun zaman dəyəri<br>• Kapitalın maya dəyəri<br>• Dövriyyə kapitalının idarə edilməsi<br>• Maliyyə hesabatlarının təhlili | CFA I və ya Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyasının (ACCA) Maliyyə Menecmenti F9 sertifikatı |
| **M-2** | **Maliyyə sektoru- Ümumi qanunvericilik** | Maliyyə qanunvericiliyi haqqında ümumi biliklər | “Azadolmalar” sütununda nəzərdə tutulmuş bütün sertifikatlar |
| **E-1** | **Etik Kodeks – səviyyə 1** | • Əsas etik prinsiplər<br>• Peşəkar davranış qaydaları | “Azadolmalar” sütununda nəzərdə tutulmuş bütün sertifikatlar |
| **E-2** | **Etik Kodeks – səviyyə 2** | • Kompleks etik ssenarilər üzrə qərarvermə<br>• Etik standartların tətbiqi və uyğunluğun monitorinqi | “Azadolmalar” sütununda nəzərdə tutulmuş bütün sertifikatlar |
| **KR** | **Kredit riski** | • Kredit riskinin əsasları<br>• Kredit reytinqləri (daxili və xarici) | Maliyyə riskləri meneceri - FRM 2 |

| | | | |
|---|---|---|---|
| | | • Kredit riskinin modelləşdirilməsi<br>• Qarşı tərəf kredit riski<br>• Kredit riskinin stress testləri<br>• Banklarda kapital strukturu<br>• Suveren kredit riski | (Financial Risk Manager Part 2) |
| **ƏR** | **Əməliyyat riski** | • Əməliyyat riskinə giriş<br>• Riskin müəyyənləşdirilməsi və qiymətləndirilməsi texnikaları<br>• Zərər hadisələri məlumatları və ssenari təhlili<br>• Əməliyyat riskinin ölçülməsi üsulları<br>• Kiber risk və kiber davamlılıq<br>• Üçüncü tərəflər və ötürmə (aut-sorsinq) riski<br>• Maliyyə cinayətləri və fırıldaqçılıq riskinin idarə edilməsi<br>• Əməliyyat riskinin stress testi<br>• Biznesin davamlılığı planlaması və təbii fəlakət bərpa planları<br>• Əməliyyat riskləri üzrə Bazel Standartları (Standartlaşdırılmış ölçmə yanaşması (SMA), Qabaqcıl ölçmə yanaşması (AMA) icmalı) | Maliyyə riskləri meneceri - FRM 2 (Financial Risk Manager Part 2) |
| **BR** | **Bazar riski** | • Bazar riskinin əsasları<br>• Parametrik və qeyri-parametrik VaR (risk altındakı dəyər)<br>• Volatilliyin ölçülməsi (smiles, surfaces)<br>• Bazar riski üzrə stress testləri<br>• Maliyyə korrelasiya modelləşdirilməsi<br>• Reqressiv hedcinq və əsas komponentlərin təhlili<br>• Törəmə maliyyə alətləri və strukturlaşdırılmış məhsullarda risk<br>• Bazar riski üzrə stress test texnikaları<br>• Likvidlik riski və ticarət riskinin əsasları<br>• Bazel bazar riski çərçivəsi (( FRTB in (Fundamental Review of the Trading Book) əsasları) | Maliyyə riskləri meneceri - FRM 2 (Financial Risk Manager Part 2) |
| **HS** | **Həyat sığortası** | • Həyat Sığortası və Annuitetlər<br>• Şərti Ödənişlər və Modellər<br>• Pensiya Riyaziyyatı<br>• Stoxastik və Maliyyə Modelləri<br>• Excel Bacarıqları | Society of Actuaries və ya Institute and Faculty of Actuaries cəmiyyətlərinin müvafiq sertifikatları |
| **Q/HS** | **Qeyri-həyat sığortası** | • Sığorta Riyaziyyatı<br>• Stoxastik Modelləşdirmə<br>• Zərər Ehtiyatlarının Qiymətləndirilməsi | |

| | | | |
|---|---|---|---|
| | | • Excel Bacarıqları | |
| **ESİ** | **Ekoloji, Sosial, İdarəetmə (ESİ)** | • Ekoloji, Sosial, İdarəetmənin (ESİ) Əsasları və Davamlı Maliyyə<br>• Maliyyədə ekoloji (E) Faktorlar<br>• Maliyyədə sosial (S) amillər<br>• İdarəetmə (G) və Maliyyədə Etika<br>• Davamlı Maliyyə Alətləri<br>• Maliyyə Analizində ESİ İnteqrasiyası<br>• ESİ Tənzimləyici Landşaft və Standartlar | 1. Sustainable Investing Certificate by Chartered Financial Analyst (CFA) Institute<br>2. Sustainability and Climate Risk (SCR®) Certificate by Global Association of Risk Professionals (GARP) |

## Risklərin idarə edilməsi vəzifə qrupuna daxil olan funksiyalar

İkinci müdafiə xətti üzrə aşağıdakı funksiyalar risklərin idarə edilməsi vəzifə qrupuna daxildir:

1. Risklərin müəyyənləşdirilməsi və risk reyestrinin aparılması;
2. Risklərin idarə olunması üzrə strateji siyasətlərin hazırlanması və təşkilatın risk idarəetmə çərçivəsini formalaşdırılması;
3. Maliyyə institutunun risk idarəetmə strategiyasının təşkilati səviyyədə tətbiqinin təmin olunması;
4. Təşkilatın risklərinin minimuma endirilməsi və tənzimləyici standartlara uyğunluq istiqamətində strateji qərarların qəbulu;
5. Risk profilinin müəyyən edilməsi, risk limitlərinin və risk nəzarət parametrinin formalaşdırılması;
6. Müxtəlif struktur bölmələrin risklərin idarə olunması üzrə fəaliyyətlərinin koordinasiyası və inteqrasiyası;
7. Risk monitorinqi və real vaxtda əsas risk göstəriciləri üzrə hesabatların hazırlanması, analiz və təhlili;
8. Risk hadisələrinin qeydiyyatı, onların səbəblərinin araşdırılması və risklərə qarşı yönəlmiş qabaqlayıcı tədbirlərinin müəyyənləşdirilməsi, planlaşdırılması və həyata keçirilməsi;
9. Risklə bağlı işçi heyətin və rəhbərliyin təlimatlandırılması, riskin idarə edilməsi üzrə biliklərin artırılması;
10. Risk qərarlarının qəbulu prosesinə dəstək göstərilməsi, müvafiq risklərin fəal idarə olunması və biznes qərarlarında risk faktorlarının nəzərə alınması;
11. Risk idarəetmə proseslərinin və göstəricilərinin mütəmadi qiymətləndirilməsi, təkmilləşdirilməsi və innovativ yanaşmaların tətbiqi;
12. Risklərin idarə olunması ilə bağlı daxili siyasətlərin, metodologiyaların və prosedurların hazırlanmasında, tətbiqi və mütəmadi yenilənməsində iştirak.

## Risklərin idarə edilməsi vəzifə qrupuna daxil olan vəzifə dərəcələrinin imtahan modulları

| İmtahan modulları / Vəzifə dərəcələri | R-1 | R-2 | İƏ | M-1 | KR* | HS* | Q/HS* | BR* | ƏR* | ESİ* | M-2 | E-1 | E-2 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ***I dərəcə*** | + | | + | + | | | | | | | + | + | |
| ***II dərəcə*** | + | + | + | + | + | + | + | + | + | + | + | + | + |

*Qeyd: * işarəli imtahan modulları yalnız müvafiq olaraq kredit riski, bazar riski, əməliyyat riski, həyat sığortası, qeyri-həyat sığortası və ESİ istiqamətlərində fəaliyyət göstərildiyi halda verilir.*

## Vəzifə qrupları üzrə vəzifə dərəcələrinin təsnifatı

| № | Vəzifə dərəcələri | Yerinə yetirdikləri funksiyalar |
|---|---|---|
| 1 | I dərəcə | - gündəlik əməliyyatların icrası və fəaliyyətlərin həyata keçirilməsi;<br>- təlimat və göstərişlərin yerinə yetirilməsi;<br>- məlumatların toplanması, qeydiyyatı, ilkin təhlili və fundamental hesabatların tərtibi. |
| 2 | II dərəcə | - müstəqil təhlil, idarəetmə və qərarvermə;<br>- əməliyyatların təşkili və iş proseslərinə nəzarət;<br>- komanda rəhbərliyi və komanda səviyyəsində məsuliyyət;<br>- təşkilatın strateji siyasətlərinin hazırlanması və idarəçiliyi;<br>- resursların bölüşdürülməsi, böyük komandaların və kompleks prosesləri idarə edilməsi;<br>- uzunmüddətli planlaşdırma və qərarların qəbulu;<br>- təşkilatın inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və idarə edilməsi;<br>- strateji siyasətlərin təşkilat səviyyəsində tətbiqində cavabdehlik. |

“Maliyyə sahəsində peşəkar sertifikatın verilməsi prosesinin təşkili və imtahanların keçirilməsi üzrə Təlimat”a 2 nömrəli Əlavə

**İmtahan modulları üzrə təqdim edilən sertifikatın forması**

**SERTİFİKAT**
**№**

*“______”__________________ 20____ il*

______________________________________________________________________________
_*(sertifikatı verən qurumun adı)*

______________________________________________________________________________
*(modulun adı)*

______________________________________________________________________________
_
*(şəxsin soyadı, adı və atasının adı)*

________________ *sertifikat verilmişdir.*

*Sertifikatı təsdiq edən məsul şəxs*
________________________________________________
*(şəxsin soyadı, adı və atasının adı)*

*Vəzifəsi* ______________________

*İmza* _________________________